# Gənclər siyasəti ölkənin inkişaf yolunun rəhnidir

Dünyanın əksər qabaqcıl ölkələrinin siyasi təcrübəsində gənclər siyasətinə xüsusi həssaslıqla yanaşılmasını açıq-aydın görmək mümkündür. Bu, heç də təsadüfi deyil. Çünki gənclər dövlətin cəmiyyətdəki dayaqlarını möhkəmləndirməklə yanaşı, dövlət siyasətinin dəstəklənməsində və müvəffəqiyyətlə həyata keçirilməsində mühüm rol oynayırlar. Dövlətçiliyin gücləndirilməsi birbaşa olaraq gələcəyin etibarlı təminatı olan gənc kadrların hazırlanmasından, onların intellektual və kreativ qüvvəyə çevrilməsindən asılıdır. Çünki gənclər zamanın istənilən kəsimində böyük yaradıcı və güc sahibi olduqlarından, onların düzgün istiqamətləndirilməsi nəticəsində dövlətçiliyin gələcəyini qorumaq mümkün olur. Bu da bir faktdır ki, gənc nəslin inkişaf səviyyəsi həmin dövlətin və ya cəmiyyətin sosial-iqtisadi, mənəvi-mədəni, eyni zamanda, siyasi həyatının tərəqqi göstəricisinə çevrilir. Yəni, gənclərə göstərilən diqqət və qayğı dövlətin uğurlu inkişafından xəbər verir.

Bu gün Azərbaycanda da gənclər dövlət siyasətinin mühüm hissəsini əhatə edir və bu sahədə praqmatik siyasət yürüdülür. Gənclər cəmiyyətin aparıcı qüvvəsi kimi qəbul olunmaqla onların düşüncələri, fikirləri və təklifləri öyrənilir, müvafiq addımlar atılır. Müasir Azərbaycan gəncləri fəal sosial təbəqə kimi demokratikləşmə prosesində yaxından iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanırlar. Dövlət gənclər siyasətində istedadlı gənclərin müəyyən edilməsi, dəstəklənməsi və inkişafına böyük diqqət ayrılır. Təhsilli, yüksək intellektual bacarığa malik insan kapitalı formalaşdırmaqda və güclü iqtisadiyyat qurmaqda gənclərin oynadığı rol əvəzolunmazdır.

Sivilizasiyanın sosial tərəqqisinə böyük təsir göstərən gənc nəslə ölkəmizdə həmişə xüsusi diqqət və qayğı göstərilib. Dövlət, onun rəhbəri tərəfindən gənclərlə bağlı həyata keçirilən məqsədyönlü siyasət bu təbəqənin nümayəndələrinin ictimai həyata daha çox cəlb olunmasına və müasir Azərbaycanın daha dinamik tərəqqisində oynadıqları rolun artmasına gətirib çıxarır. Azərbaycanın müasir dövlətə çevrilməsində bu gün gənc nəslin fəal iştirakı ölkə rəhbərliyinin xüsusi maraq dairəsindədir.

Bu gün cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən gənclər siyasəti bu nəslin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri əsasında Azərbaycan xalqının tarixi-mədəni irsinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına xidmət edir. Eyni zamanda cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların intellektual və yaradıcılıq potensialının ümummilli məsələlərin həllinə yönəldilməsinə gətirib çıxarır.

Xatırlatmaq yerinə düşərdi ki, ümummilli lider hər zaman gənc nəslə böyük qayğı ilə yanaşaraq bu təbəqənin təmsilçilərinin dövrün tələblərinə cavab verən formada inkişafını əməli tədbirlərlə stimullaşdırdı. Görülən işlər gənclərlə bağlı dövlət siyasətinin mükəmməl xarakter daşıdığını göstərməklə bərabər, eyni zamanda bu sahədə də ulu öndər Heydər Əliyev siyasətinin layiqincə davam etdirildiyini təsdiqləyir.

O da birmənalı həqiqətdir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün ölkəmizdə həyata keçirilən gənclər siyasəti keyfiyyət etibarı ilə yeni bir mərhələyə yüksəlməklə yanaşı, həm də zamanın çağırışlarına adekvat cavab verir. Qeyd edilən fonda Azərbaycan Prezdentinin xüsusi önəm verdiyi məqamlardan biri gənclərin sosial problemlərinin həlli, xüsusən də mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasıdır. Bu mənada gənclərə güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsinə dair dövlət başçısının fərmanı gənc nəslə yüksək diqqətin daha bir real təzahürünə çevrildi. Prezident İlham Əliyevin imzaladığı müvafiq Dövlət Proqramları və sərəncamlar gənclərə artan dövlət qayğısının real nümunəsidir.

Ölkə başçısı tərəfindən imzalanmış hər bir sərəncam, dövlət proqramlarının icrası rayonumuzda da uğurla həyata keçirilir. Belə ki, yola saldığımız il ərzində ərzində Gənclər və İdman idarəsi tərəfindən 65



tədbir həyata keçirilmişdir ki, bunlardan da 30 tədbir gənclərlə iş sahəsini, 35 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edir. Gənclər və İdman idarəsi ötən il ərzində gənclər arasında dövlət siyasətinin düzgün təbliği, hüquq tərbiyəsi, cinayətkarlıq hallarına qarşı mübarizə, gənc istedadların üzə çıxarılması və asudə vaxtın təşkili, milli mənəvi dəyərlərin qorunması istiqamətində bir çox tədbirlər keçirmiş, yeniyetmə gənclərimizin maarifləndirilməsində, fiziki sağlamlıqlarının artırılmasında maksimum fəallıq göstərmişdir. Keçirilən tədbirlərin başlıca istiqamətlərindən biri olan yeniyetmə gənclərin hərbi vətənpərvərlik işi hər an diqqət mərkəzində olmuşdur.

Bundan əlavə 2014-cü ildə Gənclər və İdman Nazirliyinin təqvim planına əsasən rayon gəncləri və idmançıları 53 respublika səviyyəli tədbirlərdə iştirak etmişlər ki, bunun 21-i gənclərlə iş sahəsində, 32-si isə idman sahəsində keçirilən birincilik və yarışlar olmuşdur. İdmanın şahmat, sərbəst-güləş, cüdo, taekvando, boks, karate, futbol, döyüş növləri və digər növlər üzrə respublika miqyaslı yarışlarda mükafata layiq yerlər tutaraq rayona 17 medal, 3 kubok və 25-dək fəxri fərman və qiymətli hədiyyələrlə qayıtmışlar. Ən böyük uğurumuz isə İsveçrədə keçirilən Şahmat məsələləri üzrə 38-ci Dünya birinciliyində komandamızın II yeri tutması və rayonumuzu təmsil edən Araz Alməmmədovun Beynəlxaq usta adını qazanması olmuşdur. Bundan əlavə qol güləşi üzrə Sənan Şükürov, cüdo üzrə Fazilə Aslanova, Aygün Hacıyeva, İmran Yusifov, boks üzrə Cavidan Sərkərli, Fərid İsmayıllı, cudo döyüş növləri üzrə Elçin Məmmədov, Anar Səlverdizadə, taekvondo üzrə Cavid Əzizov və Nikoqosi Filipp, sərbəst güləş üzrə Elnur Abdullayev, Murad Şəfiyev də ötən il yüksək nəticələr əldə etmiş idmançılarımızın sıralarındadırlar.

Gənclərlə iş sahəsində qazanılan uğurlarımız arasında "Xəmsə" Milli İntellektual oyunu üzrə gənclər arasında keçirilən Azərbaycan Çempionatının Televiziya versiyasında komandamızın II yerə layiq görülməsini, "Mən Azərbaycanlıyam" adlı intellektual telelayihədə Abdullayev Akşin Adil oğlunun qalib gələrək diplom və qiymətli hədiyyələrlə təltif edilməsini, VI Beynəlxalq Uşaq Muğam Festivalının finalında Mahmudov Rəsul Feruz oğlunun mükaflanmasını, "İstedadların Hazırlığı laboratoriyası" layihəsinin finalında Şirinbəyli Təranə Seymur qızının I yer tutmasını və s. göstərmək istərdim.

2014-cü il ərzində rayonumuzda bir çox beynəlxalq və respublika səviyyəli tədbirlər keçirilmişdir ki, bunlardan ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2014" Beynəlxalq velosiped turniri, 15 yaşa qədər futbolçulardan ibarət komandalar arasında III Beynəlxalq Qəbələ Kuboku turniri, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Gənc xilasedici və yanğınsöndürən" adlı III respublika birinciliyi və "Gənc xilasedici" II beynəlxalq yarışı, "Gabala Fight Series" kikboks üzrə Beynəlxalq turnir, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş Atıcılıq üzrə Beynəlxalq Qran-Pri, "Nifrət Nitqinə Yox Hərəkatı" adı altında Beynəlxalq Gənclər Forumu, Yeniyetmələrin IX Respublika Oyunlarının proqramına daxil olan boks, yunan-roman, sərbəst-güləş, voleybol idman növlərinin zona yarışlarını, taekvondonun final mərhələsini, cüdo idman növü üzrə Qəbələ rayon açıq turnirini və s. göstərmək olar.

Bütün bunlar bir daha Azərbaycan gəncliyinə Prezident tərəfindən böyük etimad göstərildiyini, onların fəaliyyətinin yüksək qiymətləndirildiyini konkret faktlar timsalında göstərir. Gənclik isə bu etimada layiq olmağa çalışaraq Azərbaycanın bir dövlət olaraq inkişafında daha yaxından iştirak edərək qazanılan nailiyyətlərə öz töhfəsini verir.

Yaşadığımız bu ay Azərbaycan gəncləri üçün ən əlamətdar aylardan biridir. Belə ki, fevralın 2-i Gənclər Günü olduğunu nəzərə alaraq bildirmək istəyirəm ki, artıq 18 ildir ki, ölkəmizdə bu bayram təntənə ilə qeyd edilməkdədir. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub.

Gənclər Günü münasibətilə hər bir gəncin bayramını təbrik edir, onlara möhkəm can sağlığı, şəxsi həyatlarında xoşbəxtlik, bütün ictimai-siyasi, iş, karyera kimi sahələrdə uğurlar və müstəqil dövlətimizin inkişafı naminə daha səmərəli fəaliyyət göstərmələrini arzulayıram.

**Fəxri SOLTANOV,**
**rayon gənclər və idman idarəsinin rəisi.**

# Doğma ölkəmizdə

## Sənaye məhsulları istehsalı yüksəlmişdir

2014-cü ildə ölkədə 31,9 milyard manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Məhsulun 69,6 faizi mədənçıxarmanın, 24 faizi emalın, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının, 07 faizi su təchizatı, tullantıların təmizlənməsi və emal bölmələrinin hesabına olmuşdur.

Ötən il sənayenin neft sektorunda məhsul istehsalı 2,4 faiz aşağı düşsə də, qeyri-neft sektorunda 6,9 faiz artım qeydə alınmışdır. İl ərzində ölkə üzrə 41,9 milyon ton xam neft, 18,7 milyard kubmetr əmtəəlik qaz hasil olunmuşdur.

## Emal bölməsində artım müşahidə edilmişdir

Emal bölməsində ötən ilin göstəriciləri də uğurlu olmuşdur. Məsələn, qida məhsulları istehsalı 1,4, içki istehsalı 8,1, geyim istehsalı 59,9, toxumçuluq sənayesi məhsulları istehsalı 1,9, kimya sənayesi məhsulları istehsalı 32, tikinti məhsulları istehsalı 22,2, hazır metal məmulatları istehsalı 6,2, metalurğiya sənayesi məhsulları istehsalı 11, elektrik avadanlıqları istehsalı 12,1 avtomobil və qoşqu istehsalı 58,2, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı 80,9 faiz artmışdır.

2014-cü ildə ölkənin elektrik stansiyalarında 2013-cü ildəkindən 6,3 faiz çox-21,9 milyard kilovatsaat elektrik enerjisi istehsal edilmişdir.

## Əsas kapitala 17,6 milyard manat vəsait yönəldilmişdir

2014-cü ildə iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17,6 milyard manat vəsait yönəldilmişdir. Vəsaitin 13,3 milyard manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Bu göstərici 2013-cü illə müqayisədə 11,8 faiz yüksəkdir.

Əsas kapitala yönəldilən vəsaitin 72,3 faizi daxili investisiyadır. Ötən il ölkədə 1978,3 min kvadratmetr yaşayış evləri, 29230 şagird yeri olan ümumtəhsil məktəbləri, növbədə 251 nəfərin qəbulu üçün nəzərdə tutulmuş ambulator-poliklinika, 280 çarpayılıq xəstəxana, 1332 yerlik məktəbəqədərki təhsil müəssisəsi, 294 yerlik klub, bir sıra istehsal müəssisələri, sosial obyektlər, o cümlədən Qəbələdə «Tufan» dağ-xizək yay-qış kompleksinin birinci mərhələsi, «Qafqaz» Yengicə termal Hotel və SPA hotel kompleks tikilib istifadəyə verilmişdir.